AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 2 (268), 10–36

**N İ Z A M İ   G Ə N C Ə V İ – 880**

# Nizami Gəncəvinin ideya və ideallarının bəşəriliyi və müasirliyi

***Yaqub Babayev***
Filologiya elmləri doktoru, professor. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan. E-mail: ymbabayev@hotmail.com
https://orcid.org/0000-0002-2220-1378

**XÜLASƏ**
Məqalədə dahi Azərbaycan şairi Nizami Gəncəvinin ideya və ideallarının bəşəriliyi, müasirliyi araşdırılır. Göstərilir ki, Nizami XII əsrdə yaşayıb yaratsa da, onun ideyalarının, ideallarının əksəriyyəti müasir dövrümüzlə səsləşir. Eyni zamanda bunlar bəşəri mahiyyət kəsb edir. Əlbəttə, Nizaminin ideyalar və ideallar aləmi geniş və çoxşaxəli olduğu üçün bir məqalədə onu tam şəkildə əhatə etmək imkan xaricindədir. Ona görə də müəllif burada deyilən problemlə bağlı bəzi xətlərə toxunmuşdur. Eyni zamanda göstərmişdir ki, ali və orta məktəblərdə şairin həyat və yaradıcılığı tədris olunur. Tələbələrin və şagirdlərin sənətkarın əsərlərinin dəyərini daha yaxşı dərk etməsi üçün onlar bu əsərlərdə irəli sürülən ideyaların müasirliyini, bəşəriliyini anlamalıdırlar. Məqalədə Nizaminin insana münasibəti, humanizmi, kamil şəxsiyyət, ictimai ədalət, hökmdar və xalq, ideal cəmiyyət barədə baxışları, eşq fəlsəfəsi, qadına münasibəti və s. məsələlər yığcam şəkildə şərh edilir.

**AÇAR SÖZLƏR**
Nizami Gəncəvi, ideyalar aləmi, ideallar aləmi, bəşərilik, müasirlik, Nizaminin tədrisi, orta məktəb, ali məktəb

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 21.04.2021
qəbul edilib: 27.04.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 2, VOL. 268, 10–36

**N I Z A M I   G A N J A V I – 880**

# Humanity and modernity of Nizami Ganjavi's ideas and ideals

***Yagub Babayev***
Doctor of Philological Sciences, Professor. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: ymbabayev@hotmail.com
https://orcid.org/0000-0002-2220-1378

**ABSTRACT**
In the article investigated the humanity and modernity of the ideas and ideals of the great Azerbaijani poet Nizami Ganjavi. It is noted that although Nizami lived and created in the XII century, most of his ideas and ideals resonate with our time. At the same time, they are considered human nature. Of course, Nizami's world of ideas and ideals is wide and diverse. It is impossible to cover it in one article. Therefore, we have touched upon some lines related to the problem mentioned here. At the same time, we have shown that the poet's life and work are taught in universities and secondary schools. In order for students and pupils to better understand the value of the artist's works, they must understand the modernity and humanity of the ideas put forward in these works. The article deals with Nizami's attitude to man, humanism, ruler and people, ideal society, philosophy of love, attitude to women and so on. issues are explained concisely.

**KEYWORDS**
Nizami Ganjavi, the world of ideas, the world of ideals, humanity, modernity, Nizami's teaching, secondary school, university

**ARTICLE HISTORY**
Received: 21.04.2021
Accepted: 27.04.2021

## Giriş / Introduction

Nizami Gəncəvi (1141-1209) dünya ədəbiyyatının bədii təfəkkür xəzinəsinə misilsiz töhfələr verən qüdrətli Azərbaycan şairidir. Onun əsərləri kürəvi miqyasda bəşəri məzmunlu bədii-fəlsəfi irsin, poetik mirasın bənzərsiz incilərindən sayılır. Bu əsərlər istər ideya-məzmun, istər obrazlar aləminin əlvanlığı və dolğunluğu, istər bəşəri ideallarsın zənginliyi və aktuallığı, istərsə də sənətkarlıq baxımından ən nümunəvi örnək, ən kamil bədii sərvət nümunələri, əxlaq, etika və mənəviyyat dərsliyi sayıla bilər.

Nizaminin həyat və yaradıcılığı ali və orta məktəblərdə də tədris olunur. Əlbəttə, şairin yaradıcılığını, onun əsas ideya və ideallarını, əsərlərinin ideya-məzmun və bədii siqlətini, obrazlar aləmini və s. şagirdlərə, tələbələrə düzgün anlatmaq vacib məsələdir. Şairin yaradıcılığının tədris prosesində onlara dürüst şəkildə mənimsədilməsində nəzərə alınmalı bir sıra cəhətlər vardır. Bunlardan biri də sənətkarın ideya və ideallarının bəşəriliyi, müasirliyidir. Nizami bəşəriyyətin bədii təfəkkür xəzinəsinə nə bəxş etmişdir? Onun əsərlərində irəli sürdüyü, təlqin və təbliğ etdiyi mətləblər bu gün bizə lazımdırmı? Həmin mətləblər bəşəri istəklərlə nə dərəcədə səsləşir və uzlaşır? Bu suallar, əlbəttə, bu günkü oxucunu da düşündürür. Onların lazımi şəkildə izahı sənətkarın yaradıcılığının dəyərini bir daha sübut etmiş olur.

Əlbəttə, biz Nizaminin ideya və ideallarının bəşəriliyinə, müasirliyinə, çəkisinə və sanbalına bir sistem halında baxmalıyıq. Yəni ilk növbədə bu ideya və ideallarsın haradan qidalanıb, haradan başlayıb, haradan nəşət tapıb haraya doğru istiqamətləndiyini, hansı nəticəyə gətirib çıxarmalı olduğunu, bəşəriyyətə və insanlığa nə verməli olduğunu nəzərdən keçirməliyik. Təbii ki, bir məqalədə bu geniş problemi əhatə etmək mümkün deyil. Ona görə də biz burada deyilən problemlə bağlı bəzi məsələlərə toxunmaq istəyirik.

## İnsana münasibət və humanizm

Nizami yaradıcılığının əsas ideya-bədii xətlərindən olan insana münasibət və humanizm problemi də özünün məzmun və intonasiyası ilə kifayət qədər əbədiyaşar səciyyə daşıyır və bütün zamanlar üçün gərəkli görünür. “Xəmsə”yə daxil olan ilk poemasından – “Sirlər xəzinəsi”nin ilk məqalətindən başlayaraq, sənətkar bu məsələni ardıcıl olaraq diqqət mərkəzində saxlayır. Poemanın “Adəmin xilqəti” (I məqalət) və “İnsanın ülviyyəti” (VII məqalət) adlanan söhbətlərində müəllif insanın yaradılışında məqsədi, onun Xaliqin nəzərindəki dəyəri, xilqəti, ülviyyəti, varlıqda

hər şeydən uca və şərəfli olması və s. barədə müfəssəl şəkildə danışır. Şairin insan haqqında düşüncələri, baxışları, ona münasibəti bəşər övladının yaradılışından başlayıb son aqibəti, axirət həyatı barədə təsəvvürləri, xəyalları, inancları ilə tamamlanır. İnsanın fiziki olumu və ölümü arasındakı maddi dünya həyatının təsvirinə, bu həyatda necə, nə məqsədlə, hansı missiya ilə yaşamalı olduğu məsələlərinə isə daha geniş yer verilir. Sənətkarın insana münasibəti və humanizmi bu əhatəli çevrədə öz əksini tapır.

Adəm övladının yaradılışına, onun səbəb və hikmətinə münasibətdə dini baxışlardan qaynaqlanan müəllifə görə Allah-təala insanı ən gözəl biçimdə yaratmış, xilqətdə ən üstün, ən şərəfli məxluq kimi xəlq etmişdir. Elə buna görə də bütün mələklər, cinlər, canlı varlıqlar və s. ona səcdə etməli olmuşlar. Dönük iblis isə Tanrının insana səcdə etmək barədə hökmünü icra etmədiyi üçün cənnətdən qovulub əbədi lənətə və cəzaya məruz qalmışdır. Bəşər övladı hər iki dünyanın − həm məna, həm də surət aləminin zinətidir. Dahi mütəfəkkirin insan və onun dəyəri barədə qənaəti aşağıdakı misralarda aydın şəkildə ifadə olunmuşdur:

Dünyanın əşrəfisən, dünya mülkü sənindir,
Dünyanın hər neməti, varı, bil ki, sənindir.
Yenilməz pəhləvansan, dünya sənlə öyünər,
Açıq qəlbin köksündə iftixarla döyünər.
Fələyin dövranından öz dövranın mətin ki,
İki dünya qüdrətdə sənə çatar çətin ki
[4, s.74].

Şairin inamına görə Allah-təala dünyanı və onun nemətlərini insan üçün yaratmışdır. O, öz gözəlliyi, kamalı ilə göydə mələkləri, fələkləri, yerdə cəmi məxluqatı heyran qoymuşdur. Deməli, Xaliqin sevərək yaratdığı bir ülvi məxluq yalnız sevgiyə layiqdir və onu sevmək lazımdır.

Nizami bütün yaradıcılığı boyu adəm övladının uca bir varlıq kimi müsbət cəhətlərindən, əzəmi keyfiyyətlərindən dönə-dönə danışır və bunların sonsuz olduğunu, saymaqla bitmədiyini bildirir. Şairə görə ağlı, istedadı, qabiliyyəti, fərasəti, nitqi, vərdişləri və s. keyfiyyətləri ilə "ülviyyət səmasını qucaqlamaq" bacarığına malik olan insanın vəzifəsi daim müsbət istiqamətdə çalışmaq, qeyrət və hünər göstərməkdir. Hünər onu fələklərə ucaldır, hünərsizlik isə alçaldıb mənəvi köləyə çevirir:

Fələklərə yüksəldər hünər, cəsarət səni,
Hünərsiz alçalarsan, tapar əsarət səni
[4, s.72].

İnsan oğlunun yüksəlməsi də, alçalması da, azadlığı da, köləliyi də, məsud yaşayışı da, zəlaləti də onun özünə, özünün fəaliyyətinə, əməlinə bağlıdır. Mübarizə ilə, əzaba qatlaşmaqla, hünərlə hər cür zillətdən qurtuluş mümkündür:

İnsan oğlu qazanar zindanda da şan-şərəf,
Gətiribdi Yusifə qaranlıq zindan şərəf.
Köləlik zəncirini zillətsiz atmaq olmaz.
İztirabsız, əzabsız şərəfə çatmaq olmaz.
Əzaba qatlaşmaqla hər niyyətə çatarsan,
Zəlillikdən qurtarıb ülviyyətə çatarsan
[4, s.98].

Nizami insanın həyata qarşı laqeydliyini, biganəliyini, passivliyini, ətalət və süstlüyünü qəbul etmir. Şairə görə madam ki, insana ilahi tərəfindən nitq, şüur, ağıl, kamal, istedad, qurub-yaratmaq bacarığı, öyrənmək və öyrətmək qabiliyyəti verilmişdir, o, bu ali nemətlərdən lazımi şəkildə yararlanmalıdır. Yəni həyat bəşər övladı üçün bir fəaliyyət, fərasət, əməl meydanıdır. O, daim yeniliyə, qurub yaratmağa can atmalı, faydalı işlər görməyə çalışmalıdır. Öz zəkası, bacarığı ilə irəliyə, yüksəlişə meyl etməli, həyatın gizli sirlərini açmağa, onun mənasını anlamağa və dəyişdirməyə cəhd etməlidir. Axtarışçılıq, quruculuq missiyası insanın əsas amalına çevrilməlidir. Onun xilqəti, xisləti, təbiəti buna nəinki imkan verir, həm də bu missiya başqa canlılardan fərqli olaraq insan üçün müəyyənləşmiş həyati bir borc, zəruri vəzifədir:

Təbiət quranda xilqətimizi,
Başqa səhifədə yazmışdır bizi.
Anlayıb düşünək hər şeyi gərək.
Hər sirri açmaqla hünər göstərək.
Yerləri, göyləri öyrənək bir-bir,
Qalmasın bizimçin açılmamış sirr
[6, s.41].

İnsana məhəbbət və humanizm Nizami yaradıcılığının əsas leytmotivlərindən biridir. İnsanın xoşbəxtliyi isə onun idealları sırasında xüsusi yer tutur. Şairə görə

madam ki, insan varlığın ən ali məxluqudur, Allahın ən kamil və gözəl əsəridir, deməli, onu sevmək də ali bir nemətdir. Həm də bu, hər bir bəşər övladının müqəddəs borcudur. Haqqın yaratdığı ən gözəl əsəri, ən şərəfli məxluqu sevməmək nadanlıq, korluq, cahillik və bəsirətsizlik əlamətidir. Bəşər övladının insansevərliyinin başlıca şərtlərindən biri də kollektivçilik, ictimaiyyətçilik, başqa insanlarla normal ünsiyyət qurmaq bacarığıdır. İstənilən bir insanın hər zaman başqalarının köməyinə, yardımına ehtiyacı vardır. Fərdiyyətçilik, özündənrazılıq, eqoizm, başqalarına qarşı biganəlik, onların dərdlərinə, ehtiyaclarına soyuqqanlı yanaşmaq humanizmlə bir araya sığmır. İnsan xislətinin naqisliyindən, qeyri-humanist təbiətindən xəbər verir. İnsan ictimai mühitin övladıdır və öz həmcinsləri ilə birlikdə, qarşılıqlı ülfət, ünsiyyət, kömək, ehtiram mühitində yaşamağa məhkumdur. Sənətkarın:

İnsansan, insana qatış hər zaman,
İnsanla yaşayar hər zaman insan

[8, s.241].

kəlamının ictimai-didaktik fəlsəfəsi də deyilən mətləbə qarşı şairin həssas münasibətindən doğur.

Dahi şəxsiyyətin insanlıq fəlsəfəsinə görə hər kəsin adı “bəşərdir”. Bu onun surəti, görkəmi ilə bağlı verilən addır. “Bəşər” adlanan şəxsin insan olması, yəni mahiyyətcə “insan” adlanması üçün o, insanlıq keyfiyyətlərinə malik olmalı, öz insan “mən”ini Tanrı və bəndə qarşısında təsdiq etməyi bacarmalıdır. Yalnız qəlbində başqalarına qarşı sevgi şəfqəti gəzdirən, mənən və feilən böyüklük edib xeyirxahlıq, insanlıq göstərən kimsələr həqiqi mənada insan adlana bilər:

İnsana baş olmaq insanlıq istər,
Yoxsa hər bir adam insandır – bəşər.
Böyüklük eyləsək hər kəsə asan,
Ancaq baş olacaq şəfqətli insan

[8, s.299].

Şairə görə yaltaqlıq, nəyinsə naminə başqalarına təmənnalı şəkildə yardım göstərmək, saxta insanpərvərlik, şöhrət, mənfəət, ucalmaq naminə alçalmaq, özünü insansevər kimi qələmə vermək ləyaqətsizlik, şəxsiyyətin ucuzluğudur. Çünki mənən məğrur olan, öz insanlıq “mən”ini qoruya bilən kəsin başı da uca olar. Sənətkarın belə insanları başını əyən təbiət əşyası otlarla müqayisə etməsi də bu ideyanın bədii bəyanına xidmət edir:

Baş yerə enərsə pozular şövkət,
Otlara yaraşar başını əymək

[8, s.363].

Yer üzündə bəşər övladının düşdüyü rəzalətlər, çəkdiyi zillət və məşəqqət, bir-birini sevmək və yardımlaşmaq, qarşılıqlı səmimiyyət və ehtiram göstərmək əvəzində onların birinin digərinə pislik və zülm etməsi, tökülən qanlar, qırğınlar şairi düşündürür, məyus və narahat edir. Baş verən ictimai zillətləri, fəlakətləri, qeyri-insani davranışları, sosial bəlaları yer üzündə insanlığın ölməsi ilə əlaqələndirir və bunu bəşərin yuvarlandığı qlobal faciə hesab edir:

İnsanda insanlıq öləndən bəri,
İtmiş insanlığın parlaq gövhəri.
İnsanlıq nəqşini oxusan bir-bir,
Bilərsən bu günkü insanlıq nədir.
Gözlərin bəbəyi neçin qaradır?
İnsanlıq ölmüşdür, matəm saxlayır

[8, s.339].

Dahi mütəfəkkir böyük bir humanist kimi özü də bəşəri miqyasda ölmüş insanlığa matəm saxlayır və onun dirilməsini arzu edir.

“Bu düşərgə” adlı ictimai-fəlsəfi mövzulu qəsidəsində də müəllif insana münasibət problemini diqqət mərkəzində saxlayır. Dünyanı insanın məskunlaşdığı müvəqqəti, qərib bir hicran diyarına bənzədən şair israrla bildirir ki, bu qərib diyarda ən faydalı iş insanın öz həmcinslərinə xeyirxahlıq göstərməsi, onların dərdinə qalması, könüllərini şadlandırmasıdır. Xoşbəxtlik sərvətdə, mənsəbdə, vəzifədə, ixtiyaratda yox, xeyirxahlıqda, cəmiyyət üzvlərinə fayda verməkdə, dərdlinin dərdinə qalmaqda, möhtacın ehtiyaclarına əlac etməkdədir. Bunun üçün adəm övladı təkəbbürü, mənəmlik iddiasını atıb, insansevərliyi, qayğıkeşliyi ağlının, qəlbinin hakiminə, sultanına çevirməlidir.

Nizami insanın axtarışlarla dolu həyatını, yeniliklər yaratmaq meylini, sonsuz xəyallar, arzular arxasınca qaçmaq cəhdini alqışlayır. Lakin bildirir ki, elə arzular da var ki, ona yetişmək insan iradəsi xaricindədir. Məsələn, İsgəndərin dirilik suyu axtarıb əbədi həyat qazanmaq idealı bəndənin sonsuz arzularından xəbər verir. Lakin ötəri olan mülk aləmində əbədi həyat qazanmaq mümkünsüzdür. Bu epizodda müəllif ideal və imkan, xəyal və gerçəklik arasındakı əlaqəni son dərəcə ustalıqla təsvir edə bilmişdir: Maddi dünyada böyük imkanlara malik olan insan oğlunun gücü, qüdrəti

əbədi həyat qazanmağa müyəssər deyil. Bu, Xaliqin hikmət və iradəsinə bağlı bir məsələdir və cismani fənalaşmadan sonra mümkündür. Allah-təalanın verdiyi canın ixtiyarı da yenə onun iradəsinə bağlıdır. "İqbalnamə"nin sonunda böyük alim Ərəstun ömrünün son anında öləcəyini hiss edib deyir:

Bu canı pak Allah vermişdi mənə,
Pak olan Allaha qaytardım yenə
[9, s.207].

Deməli, insan nə qədər şərəfli və uca olsa da, Tanrının iradəsinə tabedir, onun qədərindən kənara çıxa bilməz. Verdiyi ülvi, ilahi neməti, əmanəti – canı da o, nə vaxt istəsə səndən alacaq. Nizaminin humanizmi də Tanrı həqiqəti ilə başlayıb məhz bu həqiqətdə də başa çatır. Şairin humanist idealları müasir dövrümüzdə də öz dəyərini qoruyub saxlayır.

## Kamil şəxsiyyət problemi

Kamil şəxsiyyət barədə düşüncələrdə bəşəriyyət hələ də Nizamidən irəli gedə bilməmiş, onun "kamil şəxsiyyət" düsturuna elə bir yenilik əlavə edə bilməmişdir. Mütəfəkkirin kamil şəxsiyyət idealının kriteriyaları, ölçüləri, şərtləri həm dini, həm də dünyəvi dayaqlara söykənir. Həm dini, həm də dünyəvi baxışlardan, təlim-tərbiyə sistemindən, mənəvi-əxlaqi kriteriyalardan qidalanır. Başqa sözlə, şairin kamil şəxsiyyət təlimində əbədi həyat, axirət arzuları ilə dünyəvi istəklər sözün yaxşı mənasında sintez edilir, qaynayıb qovuşur. Yəni mühafizəkara teistlərin "yalnız axirət üçün yaşayan möminlər kamil şəxsiyyət sayıla bilər" hökmünü qəbul etmədiyi kimi, şair ateistlərin, dinə biganə yanaşanların "yalnız dünyəvi əməllərdə işıqlı yol tutanlar kamil şəxsiyyət ola bilər" tezisini də məqbul saymır. Sənətkarın fikrincə yalnız axirət üçün yaşayanların əməlləri, fəaliyyəti, xarakteri, baxışları hansı dərəcədə müsbət olmasından asılı olmayaraq nə qədər naqisdirsə, yalnız dünyəvi düşüncə ilə çalışanların həmin niyyəti də bir o qədər natamamdır.

Onu da deyək ki, N.Gəncəvi şəxsiyyətin yetişməsində həm irsiyyətin, həm təlim-tərbiyənin, həm ailənin, həm ictimai mühitin, həm də insana Allah tərəfindən əta olunan bacarığın, qabiliyyətin rolunu nəzərə alır. İrsən keçənləri və Allah tərəfindən verilənləri məvahib (ilahi tərəfindən verilən nemətlər), digərlərini isə məkasib (insanın özünün kəsb edib, çalışıb qazandığı nemətlər) hesab edir.

Müəllifin təlqinlərində mənən və ruhən əbədiyyət üçün yaşamağın zərurəti onun bəndəyə məsləhət gördüyü vacib şəxsi keyfiyyətlər sırasında xüsusi yer tutur. "Sirlər xəzinəsi"nin "Varlığın qüdrəti" adlanan VI, "Müdriklik və alicənablıq" adlanan IX,

"Dünya ilə vidalaşmaq" adlanan XII məqalətlərində şair bu barədə geniş danışır. Müvəqqəti olan bu fitnə-fəsad dünyasında əbədi həyat üçün çalışıb oraya saf qəlb, pak ruh, təmiz mənəviyyat, gözəl əxlaq, nurlu əməl aparmağın zərurətini oxucuya başa salmağa cəhd göstərir. Şairin fikir axarı əsasən aşağıdakı mətləb ətrafında cəmləşir:

Döndər qara torpaqda şəffaf suya qəlbini,
Bağla ülvi qayəyə, saf arzuya qəlbini.
Fənalığa uğrayıb talanınca varlığın,
Ayrılığın oduna qalanınca varlığın,
Qələmini sidq ilə atmalısan mənzilə,
Atıb ağır yükünü çatmalısan mənzilə.
Dünya evi hədərdir, könül də bir məskənin,
Ucal uca göylərə, könüldədir məskənin
[4, s.116].

Nizamiyə görə kamil insan hər iki dünyanın həqiqətlərini dərk edə bilən, varlığın çirkinliyində gözəlliyi sezib duya bilən və əməlini, fəaliyyətini həmin dərrakə əsasında qurmağı bacaran insandır. Çirkinlikdə gözəlliyi görmək idrakı şairin kamillik fəlsəfəsində başlıca tezislərdən biridir. "Sirlər xəzinəsi" poemasındakı "İsanın hekayəti" adlı ibrətamiz əhvalatda müəllif məhz bu problemi qoyur. İsa peyğəmbərin dili ilə insanı həyatda yalnız nöqsan axtarmamağa, gözəllik arxasınca qaçmağa, hər bir çirkinlikdə bir gözəllik gizləndiyini başa salmağa çalışır. Belə bir gözəlliyi isə yalnız idrakı, kamalı olan bəsirət sahibləri anlaya bilər.

Sənətkarın fikrincə, kamilliyə doğru can atmaq, müdrikləşmək və kamal yolunu tutmaq hər bir bəşər övladının başlıca qayəsi, əməl və amal yolu olmalıdır. Bəs kamil insan kimdir? Bununla bağlı şairin bir sıra meyarları, kriteriyaları və şərtləri vardır. Onun rəyinə görə kamil insan mənən saf, əqli və əxlaqi cəhətdən təmiz, fikrində, sözündə və əməlində dürüst olmalı, xeyirxah yol tutmalıdır. Nəfsi istəklərdən, dünyanın həvavü həvəslərindən, tamahkarlıqdan uzaq, gözütox olmalıdır. Başqasının əməyinə, qazancına göz dikməməli, qul haqqına girməməli, başqasının haqqını istismar etməməli, halal yaşamalı, qənaətcil olmalıdır. Allahı və onun yaratdıqlarını sevməlidir. İnsansevər olmalı, başqalarına xeyirxah münasibət göstərməli, yaxşılıq etməli, faydalı cəmiyyət üzvü kimi özünü təsdiq etməlidir. Yaxşı əməllər arxasınca getməli, riyadan, məkrdən, pisliklərdən, təkəbbürdən, qürurdan, mənəmlikdən uzaq olmalı, elm və mərifət qazanmağa çalışmalı, həyatda düzgün yol tutmalıdır. Sərvət,

şöhrət, mənsəb arxasınca qaçmamalıdır. Əsl insani keyfiyyətlərə malik olmalı, qəlbində iman nuru gəzdirməli, möminliyə üstünlük verməlidir. Sənətkarın kamil insandan tələb etdiyi vacib keyfiyyətlərdən biri də özünü dərk etməsidir. Çünki özünü dərk edən Haqqı dərk etmək səviyyəsinə yüksələ bilər:

Çalış həqiqətlə özünü bil sən,
Allahı bilərsən özünü bilsən.
Özünsən ən yaxşı parlayan ayna,
Uzaq fələklərlə girmə oyuna
[5, s.332].

Xalqa, cəmiyyətə fayda vermək, hünər ardınca getmək, xeyirxahlıq göstərmək də Nizaminin kamil insandan tələb etdiyi vacib xüsusiyyətlərdəndir:

Hünər ardınca qoş, xalqa hünər saç,
Qapılar bağlama, ər ol, qapı aç
[7, s.53].

“Yeddi gözəl”də verilən “Oğlum Məhəmmədə nəsihət” bölməsində, “İsgəndərnamə”də yunan filosoflarının İsgəndərə nəsihətlərində, habelə əsərlərinin ayrı-ayrı yerlərində müəllif kamil insan və onun keyfiyyətləri barədə düşüncələrini geniş və aydın şəkildə şərh edir. Poemalarındakı müxtəlif obrazların səciyyəsində, müxtəlif əhvalatlarda isə söylədiyi nəzəri fikirləri əyaniləşdirir, faktlı-sübutlu şəkildə oxucuya təqdim edir.

Şair onu da xatırladır ki, kamil insan öz aqibətinin yaxşı olmasını arzu edən kəsdir. Bu gözəl niyyət insanı gözəl ada, şərəfli mənəvi məqama ucalda bilər:

Hər kim öz sonundan yaxşılıq umar,
Gözəl addan başqa gözəl admı var?
Durma, sən ey uca ad-san bəyənən,
Dünyada yaxşı ad almaq istəsən,
Geyin, yaxşılıqla bir donu parlat,
Başqa əlbisəni yaxşılıqla sat
[8, s.394].

Nizaminin kamal yolçusu həyatı boyu axtarışda və yüksəlişdədir. Yüksəlişin son mərtəbəsində – ən ali məqamında isə onun istəkləri öz məcrasını, istiqamətini daha kəskin şəkildə dəyişir. Müvəqqəti həyatdan əbədi və qeybi həyata doğru üz tutur.

Hadisələr aləmi ilə həm mənəvi, həm də cismani rabitəsini üzmək eşqi ilə çırpınır. Şair bu idealını ifadə etməkdən ötrü "İqbalnamə"də maraqlı bir simvolik epizoddan istifadə edir. Fateh, alim və peyğəmbər kimi kamilləşmiş İsgəndər öz qoşunu ilə qəribə bir dağın ətəyinə gəlib çıxır. Bu uca dağın zirvəsinə çıxan yol dolanbac, çətin və çox əzablıdır. Ora hər adam gedib çata bilmir. Bu xoşbəxtlik çox az adama müyəssər olur. Ancaq iş burasındadır ki, hər kəs dağın zirvəsinə çata bilsə, geri qayıtmır. Belə ki, dağdan o yanda gözəl, cənnətə bənzər bir yaşayış məkanı mövcuddur. Dağın zirvəsinə çıxan şəxsi həmin məkandan səsləyib çağırırlar. O da geri qayıtmayıb həvəslə çağrılan yerə gedir. Onu heç bir tədbirlə, vəchlə saxlamaq, geri qaytarmaq mümkün olmur. İsgəndər bunu adamlar üzərində dəfələrlə təcrübə etdirib zirvəyə çıxan kəsi geri qaytartmaq istəsə də, məqsədinə nail ola bilmir. Sənətkarın əsərə daxil etdiyi bu əhvalat dərin rəmzi-fəlsəfi məna kəsb edir. Əslində həmin dağ həyatın rəmzidir, insanı cənnətdən, əbədi səadətdən ayıran maneədir. Oraya qalxan yol kamillik yoludur. Bu yolu keçmək çətin, məşəqqətli və ağrı-acılarla doludur. Lakin əzabla da olsa, onu keçib kamal zirvəsinə çatan, ali həqiqətləri dərk edən insanı xoşbəxt bir aləm, cənnət, əbədi gözəllik səltənəti gözləyir. Ona görə də kamala çatan heç kəs cəhənnəmə bənzər maddi dünya gerçəkliyinə qayıtmaq istəmir. Onunla əlaqəni kəsmək eşqinə düşür. Nizaminin kamil şəxsiyyət idealının məqsədi burada tamamlanır.

Böyük mütəfəkkir yaradıcılığında kamil şəxsiyyət və onun əbədiyyət axtarışı probleminə də toxunur. Bu mənada "İsgəndərnamə"də verilən "İsgəndərin dirilik suyu axtarması və zülmət səfəri" epizodu xüsusi maraq doğurur. Şimalda qaranlıq bir məkanda, yəni zülmət səltənətində dirilik suyu olduğunu, bu sudan içən hər kəsin ölməyib əbədi diri qalacağını öyrənən İsgəndər həmin yerə səfər edir. Ciddi çətinliklərdən, əziyyətlərdən sonra qəhrəman gedib həmin yerə çıxa bilir. Lakin dirilik suyunu içmək və yer üzündə əbədi yaşamaq, daimi həyat tapmaq arzusu ona nəsib olmur. Dərin rəmzi məna daşıyan bu epizodla sənətkar demək istəyir ki, maddi gerçəklikdə əbədi həyat qazanmaq mümkün deyil. Kamil şəxsiyyətin əbədi həyata qovuşacağı yer ancaq məna aləmidir. Dirilik suyu niyə şimalda, zülmət səltənətində yerləşir? Bunun ciddi rəmzi mənası vardır. Şair demək istəyir ki, əbədi həyatı ancaq real aləmin qaranlığını, zülmətini keçməklə qazanmaq olar. Bu zülmət isə surətlər aləminin nəfsi istəkləri, dünya ehtirasları və onunla yaşamaq, onun əsiri olmaqdır. Ondan qurtulmaq üçün həmin həvəs və ehtiraslardan imtina etmək, kamillik yolu tutmaq və öz "mən"ini ilahi aləmlə qovuşdurmağı bacarmaq, onun həvəslərindən keçmək lazımdır. Yəni maddi dünya ilə əbədiyyət məkanı arasında keçilməsi, gedilməsi çətin, müşkül olan qaranlıq, sirli bir yol vardır. Bu dünya üçün

yaşayırsansa, əbədiyyət aləmindən, ora üçün yaşayırsansa, bu dünyadan və onun həvəslərindən keçməlisən. Ona görə də İsgəndər zülmət səltənətinə gedə bildisə də, dirilik suyunu içmək ona müyəssər olmadı. Çünki o, hələ maddi gerçəklikdən və onun həvəslərindən tamamilə imtina etməmişdir. Kamillik yolunun sonuna, ən yüksək məqamına gəlib çatmamışdır. Əgər bu məqama çatarsa, əbədiyyətə qovuşmaq ona bu dünyada yox, məna aləmində nəsib ola bilər. Kamillik yolunun ibtidası bu dünyadan başlayıb məna aləmində də tamamlanır.

## İctimai ədalət, hökmdar və xalq problemi

Nizaminin humanizmindən qaynaqlanan bu ideya bütün yaradıcılığı boyu dahi mütəfəkkiri məşğul etmişdir. O, deyilən problemə münasibətdə həm də bir sosioloq, nəsihətçi, insanşünas kimi çıxış edir. Ədalətli, humanist cəmiyyətin bərqərar olması üçün arzularını, təkliflərini, məsləhətlərini, tövsiyələrini ortaya qoyur. Cəmiyyət, dövlət ierarxiyasında ədalət haradan, kimdən başlamalı, hansı məcraya yönəlməli, hansı miqyas və ölçüdə özünü göstərməlidir? Hansı şəkildə haraya doğru uzanmalıdır? Ədalətsiz insanın, hökmdarın və dövlətin taleyi, aqibəti necə olur və nəyə məhkumdur? Bu suallara şairin yaradıcılığında aydın və özünəməxsus cavablar tapa bilərik.

Sənətkar belə hesab edir ki, geniş miqyasda ədalət də, zülm də ictimai gerçəklikdə hökmdardan, səltənət ierarxiyasının ən ixtiyarlı şəxsindən başlayıb, cəmiyyət üzvlərinə, ayrı-ayrı fərdlərə doğru uzanır. O, ədalət, zülm, cəmiyyət və dövlət məsələlərinin qarşılıqlı əlaqəsinə belə bir aydın, humanist, sərrast məntiqlə yanaşır:

Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət!
Ədalətin müjdəsi, bu dünyanı şad eylər,
Ədalətin işidir – ölkəni abad eylər.
Məmləkətin dayağı ədalətdir hər zaman,
Ədalətlə nəsibin səadətdir hər zaman
[4, s.76].

“Sirlər xəzinəsi”ndə “Ədalətli və insaflı olmaq haqqında şaha nəsihət” adlı II söhbətdən verdiyimiz bu parçada şair, haqqında danışdığımız məsələyə münasibətinin əsas konturlarını ifadə edir: Zülm rəzalət doğurduğu üçün onunla zahiri fəthlərə nail olsan da, könül fatehi ola bilməzsən. Ədalət toplumun və dövlətin dayağı, onun abadlığını təmin edən əsas vasitədir. O, nəticədə səadət, bəxtiyarlıq

doğurur. Zülm isə ölkənin fəlakətinin, cəmiyyətin bədbəxtliyə düçar olmasının başlıca səbəbidir. Ölkə ədalətlə abad, zülm ilə bərbad olar.

"Sirlər xəzinəsi"ndəki "Nuşirəvanla vəziri və bayquşların söhbəti", "Sultan Səncər və qarı", "Zalım şahla düz danışan qocanın hekayəti" və s. əhvalatlarda məhz hökmdar və onun zülm və ədaləti məsələlərinə toxunulur. Müəllif ibrətamiz hadisələr əsasında ixtiyar sahiblərinə xalqla ədalətli davranışın zərurətini başa salmağa, onlara ibrət və nəsihət verməyə çalışır. Sənətkar zülm və ədalət barədə mühakimələrində, təlqinlərində, izahatlarında quru nəsihətçiliklə kifayətlənmir, öz mətləbini oxucuya çatdırmaqdan ötrü yığcam, düşündürücü əhvalatlardan, həyati hadisələrdən, yaratdığı bədii və tarixi obrazların əməllərindən, səciyyəsindən də yararlanır. Məsələn, "Nuşirəvanla vəziri və bayquşların söhbəti" hekayətində ədalətsizliyi ilə ölkəni xarabalığa çevirən şah Ənuşirəvan bayquşların söhbətindən utanır, ayılır, ibrət götürür və beləliklə, zülmü tərk edib xalqı ədalətlə idarə etməyə başlayır.

Şair əsərlərində ədalət və zülmün mahiyyətini, fəsadlarını, bəlalarını başa salmaq məqsədi ilə nümunəvi müsbət və ya mənfi hökmdar obrazları yaradır, onların fəaliyyətinin timsalında bu barədə ideallarını, tərbiyəvi fikirlərini ifadə etməyə çalışır. Məsələn, Hürmüz, Şirin, İsgəndər sənətkarın müsbət amallı ədalətli şah obrazlarıdır. "Xosrov və Şirin"dəki Sasani hökmdarı Hürmüz əsl ədalət mücəssəməsi kimi diqqəti cəlb edir. Ərköyün Xosrov gəncliyində dostları ilə bərabər gəzinti və əyləncə zamanı kəndlilərə ziyan vurduğu üçün atası Hürmüz öz oğlunu bu əməlinə görə layiqincə cəzalandırır. Rəiyyətlə yaramaz davrandığına, onlara ziyan vurduğuna görə oğlunu belə bağışlamır. Hətta car çəkdirib bunu hər yana xəbər verdirir. Hər kəsi xalqla ədalətlə rəftar etməyə çağırır, bu qaydanı pozanları, günahkarları sərt cəza gözlədiyi barədə xəbərdar edir:

Dedi: "Carçı, çağır! Eşitsin aləm,
Hər kim zülm eləsə, görəcək sitəm.
Əgər bir at gedib girsə tarlaya,
Biri bağdan meyvə, gül oğurlaya,
Birisi naməhrəm qadına baxsa,

Bir gözəl evinə yadı buraxsa,
Ən ağır cəzama olacaq düçar!"
Şah and içdi, dedi, sınmaz bu ilqar.

Ədalətdə onun qüsuru yoxdu,
Gözlər kədərsizdi, könüllər toxdu
[5, s.57].

Müəllif Hürmüzün ölkəsində abadlığın təntənəsini, insanların şad, qorxusuz yaşadığının səbəbini də şahın ədalətli davranışı, bu ədalət işığının bütün cəmiyyətə nüfuz etməsi ilə əlaqələndirir. Öz zamanında belə şahların olmadığından təəssüflənir, xalqın bu zamanda ədalətə böyük təşnəlik duyduğundan ürək yanğısı ilə söz açır:

Hanı o ədalət, o insaf hanı?!
Verə öz oğluna belə cəzanı.
İndi yüz yoxsulun tökülsə qanı,
Nahaq qan tökənə bir cəza hanı?
[5, s.59].

Sənətkar Şirinin də bibisi Məhin Banunun ölümündən sonra hakimiyyətə keçdikdə ölkəni ideal bir ədalət nuruna qərq etdiyini nəzərə çatdırır. Onun zahiri gözəlliyi, isməti, əxlaqı, iffəti, sədaqəti ilə ədaləti arasında bir bənzəyiş, paralellik olduğunu söyləyir. Şirinin məhəbbət işığı öz qəlbini nurlandırdığı kimi, ədalətinin işığı da xalqı şad, xoşbəxt edir:

Şirinin əlinə çatanda şahlıq,
Ölkədən hər yana yayıldı işıq.
Ədalətlə etdi rəiyyəti şad,
Məhbuslar həbsdən olundu azad.
Şəhər qapısından bir bac almadı,
Heç bir əkinçidən xərac almadı
[5, s.159].

İsgəndər də fəth etdiyi hər bir ölkədə insaf, mərhəmət, ədalət toxumu səpir. Hər yerdə zülmün, fitnə-fəsadın, şərin, pisliyin kökünü kəsməyə, məzlumu zalımın zülmündən qurtarmağa, kafiri mömin, imansızı imanlı etməyə çalışır. Şair obrazlı şəkildə bildirir ki, İsgəndər zülmü elə boğmuşdu ki, hətta ədalətsiz, zülmkar Dara da bu işdə ona həsəd aparırdı.

Nizaminin qənaətinə görə hökmdarın ictimai ədaləti lazımınca bərpa və bərqərar eməsi üçün onun özünün fərdi istəkləri hələ yetərli deyil. Bu idealın gerçəkləşməsi üçün o, ətrafına aqil, ağıllı, işbilən, ədalətli məmurlar, məsləhətçilər toplamalıdır. İsgəndər də məhz bu cür hərəkət edir, işi işbilənlərə tapşırır.

Şair məzlumun zülmə boyun əyməsini, zülmkarın əməli ilə razılaşmasını qəbul etmir. Onun öz haqqı, hüququ uğrunda mübarizə aparmasını, "zülmün tarlasına od vurmasını", ədalət uğrunda mübariz olmasını vacib şərt kimi irəli sürür. Məzlumu bu yolda mübarizəyə, fədakarlığa səsləyir:

Neçin alçaqlara boyun əyirsən?
Oyuncaq olursan namərdlərə sən?
Nə üçün boynuna min yük alırsan?
Zalımın zülmündən razı qalırsan?
Qəlbi yumşaqlığı bir dəfə unut,
Çiynini dağ kimi ucalıqda tut!
Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu xar olar

[6, s.71].

Nizaminin ictimai ədalət və zülmlə bağlı baxışları onun hökmdar və xalq idealı ilə qovuşur. Çünki xalqın idarəedicisi, yönləndiricisi, sahibi hökmdardır. Onun ədalət işığı yuxarıdan aşağıya bütün cəmiyyət üzvlərinin, fərdlərin üzərinə düşməli, ictimai mühiti nurlandırmalıdır. Şahla kütlə arasındakı əlaqənin, qarşılıqlı etimadın, diqqətin, qayğının qeyb olması həm şahın, həm də rəiyyətin faciəsi deməkdir. Şair əsərlərində bu faciənin nəticələrini açıb göstərən, hökmdarların zülmünü, haqsızlığını onların üzünə çırpan cəsarətli rəiyyət obrazları da yaradır. Onların dili ilə şahları ədalətə, insafa, məmur özbaşınalığına son qoymağa, hakim məhkum, ixtiyarlı-ixtiyarsız münasibətlərini nizamlamağa çağırır. Bu mənada "Sirlər xəzinəsi"ndəki "Sultan Səncər və qarı", "Zalım şahla düz danışan qocanın hekayəti" və s. əhvalatlar xüsusi maraq doğurur. Bu hekayətlərdəki qarı da, düz danışan qoca da xalqın nümayəndələri, təmsilçiləridirlər. Gecə sərxoş darğanın hücumuna məruz qalan, döyülən, təhqir edilən günahsız qarı cəsarətlə Sultan Səncərin yaxasından yapışaraq bu özbaşınalıq üçün şahı ittiham edir. Bildirir ki, gör, sənin zülmün, xalqa qarşı biganəliyin, məmurlara verdiyin qanunsuz ixtiyar, özbaşınalıq hansı həddə çatıb ki, darğa gecə sərxoş halda gəlib başqasının törətdiyi qətli bir günahsız qarının üzərinə yıxır, onu söyür, döyüb incidir. Şair, Sultan Səncərin sonralar döyüşdə məğlub edilib əsir düşməsini, cəzalandırılmasını xalqa verdiyi zülmlə, rəiyyətin ah-naləsinə tuş gəlməsi ilə əlaqələndirir, məzlumun ahının yerdə qalmayacağına inamını ifadə edir. İkinci hekayətdə isə ədalətsiz şah kəfən geyinib onun hüzuruna gedən və şahın pis əməllərini bir-bir onun üzünə söyləyən qocanın ittihamlarından nəticə çıxarır. Qoca deyəndə ki, mən sənin eyiblərini göstərən bir güzgüyəm, əgər güzgü səni nöqsanlı

göstərirsə, onu sındırmaqdansa, öz eyiblərini düzəlt, şah ayılır, həqiqəti dərk edir. Qocanı bağışlayır və öz eybini düzəldib ölkəni ədalətlə idarə etməyə başlayır:

Şaha sübut elədi düzlüyünü o qoca,
Açdı şahın qəlbindən hər düyünü o qoca.
Şah gördü ki, düz deyir, bildi nədir haqsızlıq,
Qoca tamam haqlıdır, özündədir haqsızlıq.
Dedi: "Alın kəfəni, bu kafuru qocadan,
Xələt verin, müşk səpin, razıyam bu qocadan".
Zülm etmədi, el bundan agah oldu o gündən,
Xalqı sevən, insaflı bir şah oldu o gündən
[4, s.127].

Dediyimiz kimi, bu cəsarətli qoca xalqın təmsilçisidir. Bu üzləşmə də əslində xalqla hökmdarın üzləşməsidir. Şahın islah olunub düz yola qayıtması da rəiyyətin fədakarlığının, haqq uğrunda apardığı mübarizənin nəticəsidir.

"Yeddi gözəl" poemasında da biz oxşar mənzərənin şahidi oluruq. Burada da xalqın, ölkənin taleyini Rast-Rövşən kimi yırtıcı, mənfəətpərəst, ədalətsiz bir vəzirə tapşırıb eyş-işrətə qurşanan Bəhram başı əyləncədən ayıldıqda ölkəni xaraba, xalqın halını pərişan görür. O da çobanın əməlindən və sözlərindən ibrət alır. Çoban etibar edib sürüsünü tapşırdığı köpək öz ehtirasının əsirinə çevrilir. Dişi canavarla əlaqəyə girib çobanın qoyunlarını bir-bir ona verir. Şübhələnən və bundan xəbər tutan çoban xəyanət etdiyinə görə köpəyi cəzalandırır. Çobanın bu hərəkətindən xəbər tutan Bəhram bu əhvalatdan ayılır. Rəmzi anlamda özünün çoban, rəiyyətin isə qoyun sürüsü olduğunu dərk edir. O da Rast-Rövşəni cəzalandırır, onun günahsız həbsə saldığı məhbusları azad edir, ölkədə qayda-qanun yaradır. Xalqı ədalətlə idarə etməyə başlayır. Buradakı çoban isə əslində xalq müdrikliyini təmsil edir. Deməli, hökmdarlar ölkədə nizam-intizam yaratmaq, xalqı ədalətlə idarə etmək üçün müdrik, işbilən adamlara, onların məsləhətlərinə möhtacdır. İsgəndərin ətrafında da biz həmişə müdrik adamlar görürük. Onlar səltənəti ədalətlə idarə etməkdə daim İsgəndərə yardımçı olurlar. Nizamiyə görə rəiyyəti ədalətlə idarə etmək üçün həm də hökmdarın qəlbində rəiyyət sevgisi olmalıdır. Mənsəb, eyş-işrət, həvavü həvəs düşüncəsi rəiyyət sevgisindən yüksək olmamalıdır.

## İctimai bərabərlik və xoşbəxtliyin təntənəsi. Utopik cəmiyyət ideyası

Əslində bəşəriyyətin tarixi sosial bərabərliyə əsaslanan bəxtiyar bir cəmiyyət axtarışının tarixidir. Cəmiyyətlər, insanlar, toplumların humanist ideoloqları daim istismarın, istibdadın, zorakılığın olmadığı, hamının, bütün toplum üzvlərinin hüquqlarının qorunduğu, bərabər olduğu bir cəmiyyət arzusunda və axtarışında olmuşlar. Bu mənada bəşəriyyətin son kəşfi "demokratiya və insan hüquqları" düsturuna əsaslanan dövlət modeli, ictimai dövlət və hakimiyyət quruluşudur. Lakin müasir dünyada baş verən hadisələr göstərir ki, bu model də insanlığı qandan, qırğından, istismarçılıqdan, zorakılıqdan, dünyəvi ehtiraslar arxasınca qaçıb başqasının haqqını qəsb etmək marağından nə xilas, nə də xoşbəxt edə bilməmişdir. "Güclüsən, haqlısan" manifesti, güclünün, ixtiyarlının, gücsüzün, ixtiyarsızın haqqını tapdaması, ruzisini əlindən alması faktı bu gün də dünyəvi miqyasda böyük fəlakətlərə yol açır, ölümlərə, qanlara, qırğınlara, faciələrə səbəb olur. Ona görə də bəşəriyyət, humanist cəmiyyətşünas ideoloqlar, siyasətşünaslar və b. bu gün də yeni xoşbəxt, sosial ədalətin və bərabərliyin tam bərqərar olduğu, bütün nöqsanlardan xali xəyali bir cəmiyyət, ictimai quruluş arzusundadır.

Hələ VIII əsr bundan əvvəl dahi Nizami belə bir cəmiyyətin təsvirini vermiş, modelini yaratmış, ona necə, hansı şəkildə nail olmağın səbəblərini, şərtlərini də izah etmişdi. Böyük şairin utopik cəmiyyət barədə bu idealı, baxışları onun aşağıdakı misralarda ifadə etdiyi belə bir könül istəyindən, ali niyyətindən irəli gəlir:

Elə bir ixtiyar olsaydı məndə,
Qoymazdım bəndəyə möhtac bir bəndə
[8, s.247].

Maraqlıdır ki, dahi sənətkar öz əsərlərində həm ifritələşmiş, qulyabaniləşmiş cəmiyyətin, həm də ideal ədalət səltənətinin təsvirini verir. Həm ən pis, həm də ən yaxşı ictimai mühitin bərqərar olması barədə ideallarını ortaya qoyur, onların varlığını mümkün edən, yaranmasına səbəb olan amilləri aydınlaşdırır. Birinci cəmiyyətə biz "Yeddi gözəl"dəki "Mahanın nağılı"nda, ikinci cəmiyyətə isə "İqbalnamə"nin sonuna yaxın İsgəndərin gedib çıxdığı xoşbəxtlər ölkəsinin timsalında rast gəlirik. Onların müqayisəsi cəmiyyət ərkanının yaranması, nizamı, səciyyəsi və bunlara gətirib çıxaran yollar, səbəblər barədə oxucuda dolğun təsəvvür yaradır.

“Mahanın nağılı”nda göstərilir ki, Mahan şəhər kənarındakı bir bağda dostları ilə yeyib-içir, əylənir. Lakin qaranlıqda buranı tərk etmək istəyərkən yolu azır. Xoşsima bir kişiyə rast gəlir. Kişi ona kömək edib düzgün yol göstərəcəyini deyir. Onu bir məkana gətirib çıxarır, lakin özü yox olur. Çox keçmir ki, kişinin onu aldatdığını dərk edir. Sən demə kişinin onu gətirdiyi yer divlər məkanı imiş. İkinci dəfə Mahan bir kişi ilə bir qadına rast gəlir. Eyni hadisə başına gəlir. Onlar da kömək adı ilə Mahanı aldadıb cinlər məskəninə gətirib çıxarırlar. Üçüncü dəfə bir başqası onu ata mindirib gözəl bir bağa gətirir. Sonra bəlli olur ki, bu bağ da qulyabanilər məkanı, Mahanın aldanıb mindiyi at isə əjdaha imiş. Nəhayət, yolu azmış Mahan axşam bir başqa bağa gəlib yetişir. Burada gözəl meyvələr, dəbdəbəli saray, ləziz görünən nemətlər, şərab, gözəl pərilər vardır. Pərilər Mahanı süfrəyə dəvət edir, onlar yeyib-içir, əylənirlər. Ancaq səhər açılanda bəlli olur ki, burdakı meyvələr çürükdür, təamlar üfunət qoxuyur, şərab kimi görünən içki irindir, saray xəyaldır və belə bir saray yoxdur. Pəri kimi görünən gözəllər isə iyrənc ifritələrdir. Düşdüyü vəziyyətdən çıxış üçün Mahan etdiyi günahlar ucbatından tövbə edib Allaha yalvarır. Tövbəsi qəbul olunduqdan sonra Xızırın köməyi ilə həmin qorxunc yerdən və təhlükəli vəziyyətdən xilas olur.

Müəllifin dərin ictimai-fəlsəfi məna yükü ilə yüklədiyi bu əhvalat sırf rəmzi xarakter daşıyır. Simvolik anlamda şərə, bədxahlığa, eybəcərliyə, yalana, harama, dünyəvi həvəslərin rəzalətinə bürünmüş cəmiyyəti oxucuya anladır. Nağılın qəhrəmanı Mahanın azdığı yol rəmzi mənada həyat yoludur. Haram nemətlərlə qidalanıb sərxoş olan Mahan həyat yolunu azmalı idi. Həyat yolunu azdıqdan sonra isə başına daha böyük fəlakətlər gəlir. Qarşısına çıxıb onu aldadanlar cəmiyyətin insan görkəmində olan fırıldaqçı, yalançı, bədxah bələdçiləridir. Mahanın gedib çıxdığı divlər, cinlər, ifritələr, qulyabanilər məkanları isə divləşmiş, cinləşmiş, ifritələşmiş, qulyabaniləşmiş ictimai toplumlardır. Gözəl pəri kimi görünən ifritələr zahirən gözəl, cazibədar görünən əxlaqsız cəmiyyət üzvləridir. Mahan yalnız sübh açıldıqda düşdüyü bağdakı meyvələrin, yeməklərin, şərabın, gözəllərin nə olduğunu görür və həqiqəti anlayır. Şair demək istəyir ki, sən nə qədər ki, həyatda həqiqət yolunu itirmisən, nəfsi istəklərin qaranlığındasan, zahiri aldanışların əsirisən, həqiqəti görə bilməzsən. Həqiqəti görməkdən ötrü fikrin, düşüncənin səhərinə qovuşmaq lazımdır. Göründüyü kimi, sənətkarın burada təsvir etdiyi qəhrəman və ictimai mühitlər aldanışın simvolu kimi verilir. Bu ictimai mühitləri həmin vəziyyətə salan nədir? Həqiqət yolunu azmaq, əxlaqi-mənəvi dəyərləri qeyb etmək, zahiri gözəlliyə aldanıb batini həqiqətləri anlamamaq, nəfsi istəklərin köləsinə çevrilmək, düşüncənin, idrakın qaranlığında, zülmətində yaşayıb doğru olanları fəhm etmək bacarığını itirmək və s. Sənətkar demək istəyir ki, zahirən insan yığını kimi görünən

toplumlar əxlaqi dəyərlərini, mənəviyyatını, xeyir fikrini, xeyir sözünü, xeyir əməlini, müsbət insani keyfiyyətlərini itirmişsə, onda onlar ifritə, qulyabani yığını timsalındadır.

Xoşbəxtlər ölkəsi haqqında ideallarını, mühakimələrini Nizami “İsgəndərnamə”nin sonunda verir. Bu poema “Xəmsə”yə daxil olan sonuncu əsər, şairin yaradıcılıq və həyat təcrübələrinin, ideyalarının, ideallarının bir növ məcmusu, yekun aktı idi. Böyük fəthlər edən, çoxlu ölkələr gəzən, özünü ədalət carçısı hesab edən İsgəndər, nəhayət, şimalda qəribə bir ölkəyə gedib çıxır. Bura ideal sosial bərabərliyin, bəxtiyarlığın mövcud olduğu xoşbəxtlər səltənətidir. Burada zalım və məzlum, hakim və məhkum, əzən və əzilən, varlı və kasıb, ixtiyarlı və ixtiyarsız, hüquqlu və hüquqsuz bölgüsü yoxdur, ictimai, maddi, hüquqi cəhətdən hamı tam bərabərdir, cəmiyyətdə hamı eyni cavabdehliyə malikdir, bədbəxt, zavallı, ehtiyaclı kimsəyə rast gəlinmir, hər kəs məsud, bəxtiyardır, xəstəlik, yoxsulluq, əyrilik, bədxahlıq, müstəbidlik, qeybət, fitnə-fəsad, əxlaqsızlıq, şər cəmiyyətin adi fərdindən tutmuş bütün icmaya qədər hər kəsdən uzaqdır. Onların qapıları qıfılsız, evləri hasarsızdır, sürüləri çobansız otlayır. Halallıq, doğruluq, insansevərlik hər kəsin həyat normasıdır. Ölkənin ağsaqqalları İsgəndərin bu ideal gözəlliyin səbəbləri barədə sorğularına belə cavab verirlər:

Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs,
Bizdə ağlayana bir kimsə gülməz.
Kim dərsə bir sünbül bizim əkindən,
Qəfil bir ox dəyər düz ürəyindən

[9, s.180].

Bu adamlar həm də dindar, mömindirlər. Saf etiqad və inancla yaşayırlar. Cəmiyyət mənəvi, əxlaqi, etiqadi və maddi cəhətdən bütünlüklə səadətə qovuşmuşdur. Cəmiyyət, onun qanun-qaydaları, yaşayış normaları ilə tanış olub heyrətlənən, həm də özünü ədalət carçısı hesab edən İsgəndərdə belə bir sual yaranır:

Düz yaşayış yolu budursa əgər,
İnsan bunlardırsa, bəs nəyik bizlər?

[9, s.182].

Ədalət səltənəti yaratmaq barədə cəhdlərinin, niyyətinin puça çıxdığını anlayan İsgəndər bildirir ki, əgər belə bir səadət yurdunun olduğunu əvvəldən bilsəydim, mən

də hədər gəzməz, gəlib onların içərisində onlar kimi şad, asudə ömr edib, onların dininə qulluq edərdim. Göründüyü kimi, şairin tam müsbət planda verdiyi, ictimai ədalət uğrunda mübarizə aparan qəhrəmanın özü belə buradakı gözəlliyə həsədlə, heyranlıqla, qibtə hissi ilə yanaşır və bütün cəhdlərinin boşa çıxdığını görür.

Nizami xoşbəxtlər ölkəsini təsvir etməklə kifayətlənmir. Həmin səltənəti yaratmağın səbəblərini, şərtlərini də açıqlayır. Bu səbəblər və şərtlər cəmiyyətin yaşayış qayda-qanunlarının, normalarının, etiqadının ümumi mənzərəsini təsvir etdikdə aydın olur. Həmin səbəblər və şərtlər təxminən bunlardır: Saf etiqad, möminlik; Ali şüur; Kamil əxlaq; Kamil mənəviyyat; Fərdin cəmiyyətin xoşbəxtliyində öz xoşbəxtliyini görə bilmək bacarığı; Bütün fərdləri əhatə edən və dərk olunmuş insan sevgisi, qarşılıqlı hörmət, etimad və qayğı, yəni humanizm və s.

Avropada da Nizamidən sonra mütəfəkkir ideoloqlar, məsələn, ingilis Tomas Mor, İtaliyalı Tommazo Kampanella, fransız utopik sosialistləri Sen Simon, Şarl Furye, Robert Ouen və b. utopik cəmiyyət barədə fikirlər soyləmişlər. Lakin Nizami bu sahədə öz sələflərini bir neçə əsr qabaqlamışdır. Bu gün də həmin ideyalar bəşəriyyətin mütərəqqi idealları sırasında xüsusi yer tutur.

## Nizaminin eşq fəlsəfəsi

Məhəbbət bəşər ədəbiyyatının əzəli və əbədi mövzularındandır. Bu mövzu zaman-zaman qələm sahiblərini məşğul etmiş, yüksək ideya-sənətkarlıq xüsusiyyətlərinə malik məhəbbət əsərləri hər vaxt həm estetik cəhətdən oxucunun zövqünü oxşamış, həm də ona dərin əxlaqi-tərbiyəvi hisslər aşılamışdır. Yüksək məna-məzmun siqlətinə malik məhəbbət mövzulu bədii düşüncə məhsulları bu gün də oxucunun maraq dairəsində olmaqla öz dəyərini, ideya-sənətkarlıq qiymətini itirməmiş və oxucu zövqünü oxşamaqda davam edir. N.Gəncəvinin əsərləri də bu qəbildəndir.

Məhəbbət mövzusu sənətkarın yaradıcılığının ana xətlərindən birini təşkil edir. O, bu mövzuda həm gözəl lirik şeirlər – qəzəllər yaratmış, həm də epik yaradıcılığında bu mövzuya geniş yer vermişdir. “Xəmsə”yə daxil olan iki poema – “Xosrov və Şirin”lə “Leyli və Məcnun” sırf məhəbbət mövzusundadır. Bunlar dünya ədəbiyyatında eşqin əzəmət və ülviyyətini ecazkar bir sənətkarlıqla əks etdirən möhtəşəm sənət nümunələrindən sayılır.

Nizamiyə görə məhəbbət insan xilqətinin yaradılış çağından ona ehsan edilən ilahi nemət, bəşər övladının təbiətində, fitrətində olan ülvi və ən dəyərli hissdir. Onu müsbət yola, işıqlı amallara yönəldən ali duyğudur.

Bir məsələnin üzərində də ayrıca dayanmaq lazım gəlir. Şairin fikrincə eşq yalnız insana verilən bir nemət deyil. O, kosmik aləmdən tutmuş yer üzünə, zərrədən tutmuş Günəşə qədər hər şeyin təbiətindədir. Kosmik varlıqda və yer üzündə cismani olan hər şeyi bir-birinə bağlayan, onlar arasında rabitə yaradan, eşqdir. Həm də bu rabitə o qədər zəruri, önəmlidir ki, varlığın əsasını təşkil edir. Əgər bu rabitə, eşqlə yaranan cazibə olmasa, real aləmin mövcudluğu qeyri-mümkün olar. Kainat nizamsız xaosa bürünər. Yəni eşq kainatın nizamını, harmoniyasını, ahəngdar gedişatını təmin və mümkün edən yeganə vasitədir. Şair eşqin dəyəri, mahiyyəti və funksiyası ilə bağlı yazır:

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?!
Eşqin qulu ol ki, doğru yol budur,
Ariflər yanında, bil, eşq uludur.
Eşqsiz bu dünya soyuq məzardır,
Ancaq eşq evində rahatlıq vardır
[5, s.49].

Sənətkar davam edərək bildirir ki, yer üzündə və kainatda hər şey eşqin cazibəsi ilə bir-birinə bağlanır. Maqnit dəmiri, kəhrəba quru samanı cəzb edir. Göyə qalxan su yenə cazibə səbəbilə yerə enir. Saysız-hesabsız maddələr eşqin qüvvəsi ilə öz mərkəzlərinə meyl edirlər. Bir sözlə:

Kainatda hər şey cəzbə bağlıdır,
Filosoflar bunu eşq adlandırır
[5, s.50].

Göründüyü kimi, dahi mütəfəkkir burada mühüm bir elmi həqiqəti poetik şəkildə əsaslandırır. Bu, ingilis alimi İ.Nyutonun bir neçə əsr sonra kəşf etdiyi ümumdünya cazibə qanunudur. Nizami öz sələfindən daha öncə elmi şəkildə poeziya dili ilə izah edir ki, varlıqda hər şey bir-birinə cazibə qanunu ilə bağlanır. Bu, varlıq nizamının ən mühüm qanunudur. Sadəcə olaraq filosoflar bunu eşq adlandırırlar.

İnsanın eşqinə gəlincə, şairə görə bu yolun həqiqətini anlamaq hər kəsin işi deyil. Bu ancaq səbatlı, səbirli, ağıllı, dərrakəli, təkəbbürdən, qürurdan uzaq adamların işidir. Bu dərd, əzab, məşəqqət yoludur. Onun səfası olduğu kimi nəhayətsiz cəfası da var:

Eşqə könül verən ahu-zar eylər,
Naləsiz aşiqi eşq inkar eylər.
Eşq təkəbbürlə düşməndir hər an,
Eşqlə oynamaq yamandır, yaman
İstidə xoş olur sərin bir külək,
Aşiqin könlündə dərd olsun gərək
[5, s.253].

Nizaminin məhəbbət təlimində həqiqi eşqlə şəhvət, həvəs, zahiri gözəlliyin yaratdığı ötəri ehtiras tamamilə fərqləndirilir. Onun yozumunda həqiqi eşq bir könül səfəri, mənəvi-ruhani bağlantıdırsa, şəhvət, həvəs, ehtiras aldadıcı bir tor, qeyri-insani bir hiss, yalançı bir duyğudur. Birinci insanı kamilliyə, mənəvi zənginliyə, xeyir əməllərə, nəcib duyğulara, ikinci isə cahilliyə, mənəvi zəlalətə, şərə, naqis duyğulara sövq edir.

Nizamiyə görə məhəbbət kamillik yoludur. Səbr, dözüm və səbatla bu əzablı yolu keçənlər ülviyyət zirvəsinə yüksəlir, öz insanlıq "mən"ini təsdiq etmiş olurlar. Könül qapısı bağlı olanlar üçün bu, bir həvəs, bəsirət sahibləri üçünsə fədakarlıq meydanıdır. Həqiqi eşq canı cananına təslim etməkdir. Hər bir günahda tövbə qəbul olunsa da, "eşq günahkarının" tövbəsi məqbul sayıla bilməz:

Əgər ki, aşiqin nəsibi ahdır,
Tövbə eşq əhlinə böyük günahdır.
Eşq tövbə ilə aşina deyil,
Tövbə eşq əhlinə heç rəva deyil.
Aşiq yar yolunda versin can gərək,
Qorxusu olmasın qılıncdan gərək
[7, s.264].

Məhəbbət yolu həm də sınaq, imtahan yoludur. Vüsal üçün aşiq çətin sınaqlardan, əzablardan keçib öz eşqinin həqiqətini sübut etməlidir. "Yeddi gözəl"dəki "Bişr və Məlixa", "Slavyan şahzadəsinin nağılı" kimi əhvalatlarda sənətkar bu məsələlərə toxunur. "Xosrov və Şirin", "Leyli və Məcnun" poemalarında isə onu daha əzəmətli, geniş epik lövhələr vasitəsilə əks etdirir.

Böyük mütəfəkkir məhəbbətlə bağlı yalnız gərəkli nəzəri hikmətlər, mühakimələr irəli sürməklə, öyüd-nəsihətlər verməklə kifayətlənmir. O, həm də misilsiz, bənzərsiz, yaddaqalan Aşiq və Məşuq obrazları yaradır. Bu eşq yolçularının fədakarlığının timsalında oxucularını tərbiyələndirmək, məhəbbətin əzəmətini onlara başa salmaq

istəyir, onları bu şərəfli və əzablı yolun fədailəri kimi nümunə göstərir. Şirin, Fərhad, Leyli, Məcnun şairin bu cür əfsanəvi xarakterə malik məhəbbət qəhrəmanlarıdır. Nizaminin sənətin dili ilə məşhurlaşdırdığı bu obrazlar dünya ədəbiyyatında simvollaşmış Aşiq-Məşuq obrazlarıdır. Məhz onun qələmi ilə onlar dildən-dilə düşmüş, həm bədii ədəbiyyatın, həm də müxtəlif xalqların sevilən, yaddaqalan, sıx-sıx xatırladığı eşq rəmzlərinə çevrilmişlər. Bu qəhrəmanlar sevdikləri ilk andan sona qədər öz eşqlərinə sadiq qalır, bütün cəfalara dözür, hətta öz məhəbbətləri yolunda həlak olurlar. Yəni canlarını cananları yolunda fəda edirlər. Çünki onların eşqi cismə olan sevgi deyil, ruha olan sevgidir.

Sevgi macəralarının təsvirində şair bu günkü oxucunun da zövqünü oxşayan rəngarəng rəmzi epizodlardan istifadə edir. Məsələn, “Leyli və Məcnun”da təsvir olunur ki, Məcnun Leylini görməkdən ötrü rastlaşdığı bir qarıdan xahiş edir ki, onun boynuna zəncir bağlayıb dilənçi sifətilə Leyligilə aparsın. Bu bəhanə ilə o, Leylini görmək istəyir. Qarı onun dediyinə əməl edir. Elə ki Məcnun Leyligilə çatıb onu görür, zənciri qırıb azad olur və əvvəlki məkanına qayıdır. Bu epizoddakı qarı dünyanın, Məcnun sevən bəndənin, zəncir dünya həvəslərinin və əzablarının, dilənçi paltarı eşq yolundakı məsumluğun, maddi yoxsulluğun, Leyli isə Haqqın sevgiyə layiq zərrəsinin timsalıdır. Həqiqi aşiq bu zərrəyə yetdikdə zəncirdən, yəni dünyanın həvəs və əzablarından xilas olur.

Sənətkar həm də eşqi tərbiyələndirici bir vasitə kimi təlqin edir. Xosrov əvvəllər Şirini bir əyləncə obyekti kimi sevir. Onun bu sevgisi surətə, zahiri gözəlliyə olan məftunluqdur. Lakin o, tədricən Şirinin təsiri, təlqinedici sözləri, iffətli, ismətli davranışları, alicənab nəsihətləri ilə mənəvi təkamül yolu keçir. Onun eşqi surətə, zahiri gözəlliyə vurğunluqdan mənəviyyata, ruha vurğunluğa çevrilir. Əsərdəki son epizodlar bunu aydın şəkildə sübut edir. Belə ki, Şirinlə izdivacdan sonra Xosrov mənsəb, şöhrət həvəsini tərk edib taxt-tacı oğlu Şiruyyəyə verir. Şiruyyə xəyanət edib Şirini almaq üçün atasını ölümcül yaralayanda ürəyi su istəyən Xosrov qıyıb yanında yatan Şirini yuxudan oyatmır. Öz sevdiyi qadına əziyyət vermək istəmir.

Ümumiyyətlə, Nizamiyə görə eşq son dərəcə mühüm tərbiyə vasitələrindən biridir. O, bəşər övladında insanlıq duyğuları oyadır, onu xeyir əməllərə, nəcibliyə, dürüst əxlaqa, saf mənəviyyata, iffətə, ləyaqətə, səmimiyyətə yönəldir. Bir sözlə, bəndəni adi məxluq olmaqdan xilas edib insanlaşdırır. Təbii ki, bəşəriyyət bu gün də insanlaşmağa, bəndəlikdən xilas olub əsl insanlıq meydanına yetişmək həsrəti, arzusu ilə yaşayır. Nizaminin idealları bu mənada da təzə, təravətli görünür.

## Qadına münasibət

Qadına səmimi münasibət, qadın ləyaqətinə hörmət N.Gəncəvi yaradıcılığında məqsədli və ardıcıl bir sistemə çevrilmişdir. O, Şərq ədəbiyyatında qadına yüksək dəyər verən, ona insani münasibət göstərən qüdrətli qələm sahibi kimi tanınır. Orta əsrlərdə İslam Şərqində Nizami qədər əsərlərində çoxsaylı müsbət qadın obrazları yaradan sənətkarların sayı kifayət qədər azdır. Həm də Şərq ədəbiyyatında bu nəcib ənənənin bünövrə daşını qoyan məhz N.Gəncəvidir. Bununla o, Şərq bədii düşüncəsində davamlı bir ənənə yaratmış, ədəbi fikrə güclü şəkildə təsir göstərmişdir. Aşağıdakı misralarda sənətkarın qadına münasibətinin nəzəri konturları aydın şəkildə ifadə olunmuşdur:

Bil ki, namərd olmaz hər qadın olan,
Dərd çəkməyən kişi pisdir qadından.
Çox gözəl arvad var, mərdlikdə bir şir,
Çox ipək içində şirlər gizlənir

[5, s.343].

Ümumiyyətlə, şairin qadına baxışı, münasibəti orta əsrlər İslam Şərqində mühafizəkar dairələrin, mürtəce ruhani güruhunun, ictimai mühitdəki cahil kütlənin qadına baxış və münasibətindən tamamilə fərqlənir. Özünün müsbət, insani çalarları, yüksək sevgi hissi ilə fərqlənir. Bu mənada sənətkar öz ideya və baxışlarını təsdiq etmək üçün yaradıcılığında qadının həm zahiri, həm də mənəvi gözəlliyinin təsvirinə və tərənnümünə geniş yer verir. Məsələn, onun qəzəllərində qadının zahiri gözəlliyinin əlvan boyalarla, cazibədar rənglərlə təsvirinə xüsusi diqqət yetirilir. Poemalarında isə qadının həm zahiri, həm də mənəvi gözəlliyinin, ləyaqət və əzəmətinin təsviri ilə üzləşirik. Şair epik əsərlərində bir sıra müsbət qadın obrazları yaradır və onları insanlığa nümunə kimi göstərir. Bu obrazlardan “Sultan Səncər və qarı”nın hekayətindəki qarını, həmçinin Məhin Banunu, Şirini, Leylini, Fitnəni, Slavyan şahzadəsini, Nüşabəni və s. göstərmək olar. Bunlardan əlavə ayrı-ayrı kiçik epizodlarda, “Yeddi gözəl”dəki nağıllarda da müsbət səciyyəyə malik qadın surətləri ilə rastlaşırıq. Bu surətlərin hər biri qadının işıqlı amal və əməlinin müxtəlif tərəflərini, cəhətlərini üzə çıxarır. Bununla da bu obrazlar Nizaminin qadına münasibətinin təsdiqedici bədii faktı kimi diqqəti cəlb edirlər.

Sənətkarın əsərlərində yaratdığı müsbət qadın obrazları mənşəyinə, sosial mənsubiyyətinə, xarakterinə görə rəngarəngdir. “Sultan Səncər və qarı” hekayətində “ictimai aşağıları” təmsil edən cəsarətli bir qadın – qarı obrazı görürük. O, cəsarətli,

hünərvər, zülmə, haqsızlığa etiraz edən kəskin bir ittihamçıdır. Bu cəsarətli qadın Sultan Səncərin ölkədə yaratdığı ictimai haqsızlığı, ədalətsizliyi, özbaşınalığı bir-bir onun üzünə çırpır və "ictimai aşağıların" zülmə etirazının ümumiləşmiş simvoluna çevrilir.

"Xosrov və Şirin"dəki Məhin Banu və Şirin də qadın ləyaqətinin çeşidli meyarlarını öz xarakterlərində cəmləşdirən surətlər kimi diqqəti cəlb edirlər. Hökmdar olan Məhin Banu ağıllı, ədalətli, xeyirxah, səmimi və qürurludur. Şair rəğbətlə yaratdığı bu qəhrəmanının ölkəsini və özünü oxucuya bu sözlərlə təqdim edir:

Dərbənd dənizinin bir sahmanında
Bir gözəl ölkə var dağlar yanında.
Şahzadə qadındır orda hökmüran.
Yayılmış qoşunu İsfahanacan.
Əri yoxdur, məsud dolanır özü,
Xoş keçir gecəsi, həm də gündüzü.
Şəmira adlanır o göyçək qadın,
Böyükdür mənası bu gözəl adın.
Cürətdə kişidən heç geri durmur,
Böyük olduğundan Məhin Banudur

[5, s.63].

Məhin Banu özü gözəl olduğu kimi ağlı, ədaləti, bacarığı ilə ölkəsini də gözəlliklər diyarına çevirmişdir. Qardaşı qızı Şirinə verdiyi öyüd-nəsihətlərdə ("Məhin Banunun Şirinə öyüd verməsi") o, qadın necə yaşamalıdır, öz şərəf və ləyaqətini, təmiz adını necə qorumalıdır, onun vəzifələri nədir? – kimi məsələlərə aydınlıq gətirir. Şairin Məhin Banunun dili ilə dediyi bu nəsihətlər bu gün də öz dəyərini itirməmişdir. Şirin obrazı isə qadına məxsus zahiri və daxili gözəlliyin çoxlu sayda atributlarını özündə ehtiva edir. Müəllif bu surəti böyük məhəbbətlə yaratmış, qadına məxsus bir sıra yüksək keyfiyyətləri onun simasında ümumiləşdirmişdir.

"Leyli və Məcnun"dakı Leyli obrazı ilə Nizami qadına münasibətin yeni və vacib bir çalarını ortalığa qoymuşdur. Bu, qadın hüquqsuzluğu problemidir. Leyli qadın hüquqsuzluğunun rəmzidir. O, yəni qadın sevmək, sevilmək, azad söz demək və fikir söyləmək, öz iradəsini ortalığa qoymaq, azad yaşamaq hüququndan məhrumdur. Şair orta əsrlər cəhalətinin yaratdığı bu mənzərəyə, qadın hüquqsuzluğuna, onun əsarətdə saxlanılmasına mənəvi və cismani köləliyinə kəskin etirazını bilirir. Qadın hüququnun, azadlığının müdafiəçisi kimi çıxış edir. Bütün zamanlarda və məkanlarda

ictimai mühitin, mənfi adət-ənənələrin yaratdığı qadın köləliyinin, əsarətinin və hüquqsuzluğunun hansı mənəvi və əxlaqi böhranlara gətirib çıxardığını açıb göstərir.

"İsgəndərnamə"dəki Nüşabə obrazı da qadın əzəmətinin parlaq nümunəsidir. O, öz cəsarəti, ağlı, kamalı, tədbiri, hünəri ilə İsgəndəri belə mat qoyur. Nəcib, xeyirxah, ədalətli, insani fəaliyyəti ilə ölkəsində bolluq, bərəkət, əmin-amanlıq, xoş rifah yaradan bu hökmdar qadın Nizaminin məhəbbətlə yaratdığı yaddaqalan surətlərdən biridir. Aşağıda Nüşabənin öz dili ilə deyilən misralarda onun müsbət xarakteri dolğun şəkildə ifadə olunmuşdur:

Erkək tinətliyəm olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz

[8, s.380].

"Yeddi gözəl" poemasındakı Fitnə və Slavyan şahzadəsi də ağıl, kamal mücəssəməsi kimi diqqəti cəlb edirlər. Onlar öz müdrik hərəkətləri, tədbirli davranışları ilə qarşılarındakı kişilərdən daha üstün təsir bağışlayırlar.

Bütün yaradıcılığı boyu Nizami ardıcıl şəkildə qadın hüququnun, feminizmin tərəfdarı kimi çıxış edir. Qadının ictimai gerçəklikdəki rolunun, mövqeyinin çəkisini, əhəmiyyətini oxucuya başa salmaq məqsədi güdür, onu azad, bərabərhüquqlu cəmiyyət üzvü kimi görmək istəyir. Qadının istər zahiri, istərsə də əməl, idrak, əxlaq, kamal gözəlliyinin tərənnümçüsü və təbliğatçısına çevrilir. Şairin bu idealı, təbii ki, müasir dövrümüz üçün də kifayət qədər aktual görünür.

## Nəticə / Conclusion

Nizami bu gün yalnız cismən bizim aramızda yoxdur. O, həm ruhən, həm də özünün zəngin və insani ideyaları, böyük idealları, insan övladına bu gün də gərək olan bəşəri arzu və istəkləri ilə bizim aramızdadır, bizim müasirimizdir. Yəni sənətkar əsərlərində elə ideyalar irəli sürmüş, elə vacib mətləblərə toxunmuş, elə ideallar arxasınca getmişdir ki, həmin ideya, mətləb və ideallar müasir qlobal ictimai gerçəklikdə də öz aktuallığını itirməmişdir. Və şübhəsiz ki, yüksək bəşəri dəyərinə, əbədiyaşar məzmun və siqlətinə, insani keyfiyyətinə görə gələcəkdə də öz qiymətini, aktuallığını itirməyəcəkdir. Başqa sözlə desək, Azərbaycan şairinin ideya və idealları bəşər övladının mövcud olduğu bütün zamanlarda və məkanlarda daim onu düşündürmüş, narahat və məşğul etmiş, insan övladı ona çarə axtarmış, qurtuluş yolları aramışdır. Təəssüflə deməliyik ki, bəşəriyyətin can atdığı, gerçəkləşdirmək xəyalı ilə yaşadığı həmin ideya və idealların, arzu və istəklərin çoxu hələ də öz həllini tapmamışdır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Azadə R. (1979). Nizami Gəncəvi (Həyatı və sənəti). Bakı, Elm. 197 s.
2. Azərbaycan renessansı və Nizami Gəncəvi (Məqalələr məcmuəsi). (1984). Bakı, Elm.
3. Hüseynov X. (1983). Nizaminin “Sirlər xəzinəsi”. Bakı, Elm. 171 s.
4. Gəncəvi N. (1981). Sirlər xəzinəsi. Bakı, Yazıçı. 238 s.
5. Gəncəvi N. (1982). Xosrov və Şirin. Bakı, Yazıçı. 392 s.
6. Gəncəvi N. (1981). Leyli və Məcnun. Bakı, Yazıçı. 288 s.
7. Gəncəvi N. (1983). Yeddi gözəl. Bakı, Yazıçı. 336 s.
8. Gəncəvi N. (1988). Lirika. Sirlər xəzinəsi. Şərəfnamə. Bakı, Yazıçı. 264 s.
9. Gəncəvi N. (2004). İskəndərnamə. İqbalnamə. Bakı, Lider. 256 s.
10. Sasanian Ç.S. (1985). Nizaminin “Leyli və Məcnun” poeması. Bakı, Elm.
11. Yusifli X. (1982). Şərqdə intibah və Nizami Gəncəvi. Bakı, Yazıçı. 198 s.